# Milli kinomuzda qadın baş qəhrəmanlar niyə yoxdur?..

**XIX əsrin son ixtirası olan kinonun yaranmasından 130 il keçir. 1895-ci il martın 22-də Parisdə Lui Lümyer qardaşları bəşər tarixində ilk dəfə olaraq filmlərinə baxış keçirir və dekabrın 28-də daha geniş kütləyə təqdim olunur. Bu hadisə tarixə kinonun yaranması günü kimi yazılır. Azərbaycan kinosu isə dünya kinosundan təxminən 3 yaş geridə qalır. Belə ki, 1898-ci ilin mayında fotoqraf və naşir Aleksandr Mişon Bakıda ilk kino çəkilişini həyata keçirir və bununla da bütün Şərq aləmində ilk kinonun əsası qoyulur. Azərbaycan bədii filminin çəkilişi isə 1915-ci ildə baş tutur. Həmin ildə Pirone qardaşlarının səhmdar cəmiyyəti tərəfindən İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənətində" adlı romanı əsasında eyniadlı ilk Azərbaycan bədii filmi çəkilir. 1916-cı ildə isə Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası əsasında ilk Azərbaycan kinokomediyası ekranlaşdırılır...**



Kino tarixilə bağlı bu qədər. Bu yazımızda isə kinomuzda qadın obrazları, ümumiyyətlə, qadın mövzusunun necə "işıqlandırılmasından" söhbət açacağıq...

İlk azərbaycanlı rejissorlardan biri olan Abbas Mirzə Şərifzadə 1925-ci ildə çəkdiyi "Bismillah" filmində birinci dəfə qadın problemlərini geniş şəkildə təqdim etməyə çalışıb. Əsas personajlardan biri olan Zeynəb təcavüzə məruz qalır, təhqir olunur, sonda bolşeviklərin mübarizəsinə qoşulur, lakin onun taleyi filmdə törəmə xətt kimi özünə yer alır. Buna baxmayaraq, "Bismillah" Azərbaycanda qadın azadlığına toxunan ilk film kimi qəbul olunur.

Sosializm quruculuğu illərində çəkilən dörd filmi xüsusi qeyd etmək lazımdır: "Gilan qızı", "Sevil", "İsmət" və "Almaz". Bu filmlərdə qadının mənəvi-siyasi inkişaf yolu əks olunur. 1928-ci ildə Leo Murun lentə aldığı "Gilan qızı" filmində müəllif hüquqları pozulan evdar qadın Səkinənin inqilabçı kommunistə çevrilməsi prosesini göstərmək istəmişdir. İran Azərbaycanında şah rejimi və rejimi dəstəkləyən ingilis qoşunlarına qarşı mübarizə aparan kommunist Hacı Zəkidərin həyat yoldaşı olan Səkinəyə şər atılır. O, ərinə "xəyanətə" görə qonşular tərəfindən daşqalaq edilir. Buna susqun qalan Zəkidər sonradan həqiqəti öyrənir, lakin ona qarşı düşmən mövqedə olan qardaşı Hacı Mübarək tərəfindən öldürülür. Köməksiz qalan Səkinə son səhnələrdə məcburən kommunist inqilabçılara qoşulur. Lakin tamaşaçı onu yeni kontekstdə görə bilmir, çünki o da ingilislər tərəfindən öldürülür. Film barədə dramaturq və rejissor Cəfər Cabbarlı "Hara gedir Azərkino" adlı məqaləsində haqlı olaraq yazırdı: "Azərkino yerli qüvvələrdən ssenari hazırlamaq üzərində işləmir və yalnız dəvət olunanlara (filmin rejissoru və ssenaristləri rus idi) ümid bağlayır, onlar isə yerli həyatla tanış olmadıqlarından türk kişisi və qadını haqqında hər cür uydurmalar yazır, sonra da ssenarini oxuyan ilk türk elə buna etiraz edir və hər şey alt-üst olur. "Gilan qızı" ilə də eyni hal baş vermişdi...". Yəni tamaşaçı bu filmdə qəhrəman qadın obrazını görə bilmir.

Cəfər Cabbarlı və Aleksandr Bek-Nazarov tərəfindən 1929-cu ildə çəkilən "Sevil" filmində savadsız, evdar qadın Sevilin əri Balaş tərəfindən təhqirə, təzyiqə məruz qalması, evdən qovulması, övladından ayrı salınması, nəhayət, bütün bunlara etiraz etməyə güc taparaq çadrasını tullayıb inqilabi prosesə qoşulması, qadın haqları uğrunda mübarizəsi lentə alınıb. Hadisə ailə dramı çərçivəsindən çıxarılaraq siyasiləşdirilib. Sovet quruluşunun qadınlara gətirdiyi azadlıq ölkədə baş vermiş ictimai-siyasi dəyişikliklə assosiasiyada təqdim olunub. Filmin digər qadın obrazı Balaşın bacısı Gülüşün final səhnəsində geniş meydanda çadrasını çıxarması o dövr kinematoqrafiyamız üçün yenilik sayılırdı. Elə rejissor Mikayıl Mikayılovun 1934-cü ildə ekranlaşdırdığı "İsmət" filmində də əvvəlki iki filmdə olduğu kimi, qadının ictimai prosesə qoşulması təqdim edilirsə, 1936-cı ildə ekranlaşdırılan "Almaz" filmində Ağarza Quliyev və Qriqori Braginski (C.Cabbarlı 1931-ci ildə film üçün ssenari yazıb çəkilişlərə başlasa da işi sona çatdıra bilmir, onun qəfil ölümü ilə hər şey yarımçıq qalır) daha çox qadın haqlarını və köhnə fikirliliyə qarşı mübarizəni ön plana çəkirlər. Filmdə Almaz qətiyyətlidir, cəsarətlidir, sovet həqiqətlərinin müsbət başlanğıcının daşıyıcısıdır.

Qəhrəmanı qadın olan filmlərin çəkilişi İkinci Dünya müharibəsindən sonra da davam etdirilir: "Ögey ana", "Onu bağışlamaq olarmı", "Aygün" filmlərində artıq qadın qəhrəmanların ailəyə dərin bağlılığı, namuslu olması motivi daha çox qabardılır. Kişi rejissorlar qadın qəhrəmanlarını ideal ailə qadını səviyyəsinə yüksəldir, onların üzərinə cəmiyyətə daha faydalı ola bilmək funksiyasını da qoyurdular. "Onun böyük ürəyi"ndə Səmayə, "Aygün"də Aygün, "Ögey ana"da Dilarə, "Böyük dayaq"da Maya obrazlarını müəlliflər əsas obraz kimi götürüblər.

60-cı illərdə çəkilən filmlərdə kinomuz üçün yeni xarakterli obrazlar yarandı: deyingən qadınlar. Məsələn, "Bir cənub şəhərində", "Bizim Cəbiş müəllim", "Yay günlərinin xəzan yarpaqlarında", "İstintaq", "Qanun naminə", "İmtahan" filmlərində qadın obrazlar deyingəndir, ərlərini daim təzyiq altında saxlayır, dürüst olduqları üçün onları tənbeh edir, pul qazanmadıqlarına görə qınayırlar...

Bəzi filmlərimizdə fiziki zorakılığa məruz qalan qadın "günah keçisi" kimi də təqdim olunur. "Yeddi oğul istərəm"də (1970) Humay, "Evin kişisi"ndə Əntiqə (1978), "Üzü küləyə"də Nərgiz (1977) kimi qadın obrazları zorakılığın qurbanı kimi göstərilir, onların faciələrinin səbəbləri araşdırılmır, əsl günahkarlar cəzalandırılmırlar. Filmlərimizdə xəyanətkar qadın obrazları da görürük. "Etiraf" (1992), "Dalan" (2019), "Əzizim Fellini" (2010), "Axınla aşağıda" (2015), "Nar bağı" (2017), "Əfsanə qayıdır" (2019) filmlərində əzilən, müti, xəyanətkar qadın obrazları var.

Milli kinomuzda qadın və müharibə mövzusu da müəyyən yer tutur. Məsələn, müharibə haqda çəkilən filmlərdə - "Tütək səsi", "Onun böyük ürəyi", "Mən ki, gözəl deyildim" - qadının ailəyə sədaqəti, arxa cəbhədə fədakarlığı göstərilir. İkinci Dünya müharibəsindən sonrakı dövrdən bəhs edən "Ölsəm bağışla" filminin qadın qəhrəmanı isə sevgilisinin müharibədən qayıtmasını gözləmədən başqası ilə ailə qurur. 2005-ci ildə Eldar Quliyevin çəkdiyi "Girov" filmində hadisələr Qarabağ müharibəsinin yeni başlandığı dövrdə sərhədyanı kəndlərin birində cərəyan edir. Filmin əsas qəhrəmanı üç uşaq anası Sona ermənilər tərəfindən girov götürülən ərini dəyişmək üçün kənd camaatının əsir götürüb, ona verdiyi erməni kəndlisini öldürmür, əksinə, girov götürülən düşmənin uşaqlarını öz uşaqları ilə müqayisə edir, mərhəmət hissi nifrətinə qalib gəlir.

Azərbaycan tamaşaçısı kinematoqrafçılardan çox şey gözləyir. 30 illik işğal, müharibə dövründə əsl qəhrəmanlıq göstərən qadınlarımızın həyatından bəhs edən filmlər çəkmək, onları bu filmlərin epizodik deyil, baş qəhrəmanı kimi vermək, mənəvi dünyasını açıb göstərmək, dünya tamaşaçısına təqdim etmək. Azərbaycan qadınının buna haqqı var...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 13 mart (№ 55).-